**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QƏDİM DÖVRDƏ VƏ ORTA ƏSRLƏRDƏ BƏRDƏ ŞƏHƏRİNİN ŞÜŞƏ MƏMULATI

| | |
|---|---|
| İxtisas: | 5505.02- Arxeologiya |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Aytən Vaqif qızı Əsədova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Antropologiya İnstitutunun "Azərbaycanın orta əsrlər dövrü arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix elmləri doktoru, professor<br>**Arif Məhəmməd oğlu Məmmədov** |
| | tarix elmləri doktoru, professor<br>**Qasım Əhəd oğlu Hacıyev** |
| Rəsmi opponentlər: | AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor<br>**Vəli Baxşəli oğlu Baxşəliyev** |
| | tarix üzrə fəlsəfə doktoru<br>**Namiq Nəbi oğlu Hüseynli** |
| | tarix üzrə fəlsəfə doktoru<br>**Laçın Xalid oğlu Mustafayev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | tarix elmləri doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri: ______________ | tarix elmləri doktoru, professor<br>**Hidayət Fərrux oğlu Cəfərov** |

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının qədim yaşayış məskənlərinin, xüsusilə də şəhərlərin tarixi-arxeoloji baxımdan öyrənilməsi Azərbaycan tarix elminin aktual problemlərindən biridir.

Azərbaycanda qədim və orta əsr şəhərlərinin planlı şəkildə tədqiqinə Sovet hakimiyyəti dövründə başlanmışdır. Müstəqillik illərində Azərbaycanın bir sıra şəhərləri tarixi-arxeoloji baxımdan yenidən və hərtərəfli öyrənilmişdir. Bu zaman ölkənin sosial-iqtisadi, siyasi və mədəni tarixini öyrənmək üçün müxtəlif təşkilatlar və cəmiyyətlər yaradılmışdır. Azərbaycan tarixinin bir çox aspektlərinə dair fundamental əsərlər yazılmışdır. Burada tədqiqatçılar tərəfindən ayrı-ayrı sənət sahələrinin meydana çıxması tarixi, metalişləmə, dulusçuluq, şüşə istehsalı, zərgərlik, daşişləmə və digər sahələrin tədqiqi ilə bağlı elmi nəticələr əldə edilmişdir. Qədim dövrdə və orta əsrlərdə istehsal sahəsinin öyrənilməsi üçün müxtəlif tipli və müxtəlif dövrlü arxeoloji abidələrdən əldə edilmiş materiallar xüsusi əhəmiyyət kəsb etmişdir. Bərdə ilə yanaşı Azərbaycanın qədim və orta əsr şəhərlərindən olan Naxçıvan, Qəbələ, Beyləqan, Şamaxı, Şabran, Gəncə və Şəmkirdə aparılan arxeoloji qazıntılar zamanı xeyli sayda şüşə əşyalar əldə edilmişdir ki, bu da həmin istehsal sahəsinin meydana gəlməsi və inkişafı tarixini izləməyə imkan vermişdir.

Dünya ölkələrinin şüşə istehsalı tarixinin öyrənilməsi məsələsini araşdıran, toplanmış materialların elmi nəticələrini ümumiləşdirən beynəlxalq cəmiyyət – "Beynəlxalq şüşə tarixi assosiasiyası" yaradılmışdır ki, o da şüşə məmulatını və onun tarixi əhəmiyyətini təbliğ edir. Bu baxımdan Bərdə şəhərində aşkar edilmiş şüşə məmulatının tədiqiqi və təbliğinin böyük elmi əhəmiyyət kəsb edəcəyini düşünürük.

Bərdənin qədim və orta əsrlər dövrünə aid arxeoloji qazıntılarından aşkar edilmiş müxtəlif təyinatlı şüşə əşyalar çoxluq təşkil edir. Sənətkarlığın xüsusi tədqiqat problemləri - saxsı istehsalı, metalişləmə, zərgərlik və digərlərindən fərqli olaraq Bərdənin şüşə məmulatı xüsusi tədqiqat obyekti olmamışdır. Ona görə də Bərdənin qədim dövr şüşə məmulatı ilə bağlı bir çox suallar, o cümlədən şüşənin

təsnifatı, onun istehsal texnologiyası və texnikası, əhalinin sosial və mənəvi həyatında şüşənin tutduğu xüsusi yeri özünün tam elmi həllini tapmamışdır. Elmi ədəbiyyatla tanışlıq göstərir ki, Azərbaycanın müxtəlif regionlarına aid abidələrin şüşə məmulatının təsviri və təsnifatı şərh edilsə də Bərdə şəhərinin qədim dövr və orta əsrlərdə şüşə məmulatı, onun istehsalı tarixinə və texnologiyasına aid xüsusi tədqiqat həsr edilməmişdir.

Bərdə şüşə məmulatının tədqiqi bir tərəfdən Azərbaycan şəhərlərinin sosial strukturunu, məişətini, digər tərəfdən şüşə istehsalının şəhər sənətkarlığı sektorunda yerini və rolunu müəyyənləşdirməyə imkan verməklə yanaşı, müxtəlif çeşidli və müxtəlif təyinatlı şüşə əşyaların forması və bədii tərtibatında mövcud ənənəviliyi və baş verən innovasiyanı izləməyə imkan verir. Bu isə şüşə məmulatının xalqın mənəvi təsəvvürlərində günümüzə qədər çatmış olan adət-ənənələrin və rəvayətlərin xalqın yaddaşında dərk olunması haqqında aydın fikir yaradır. Bütün bu yuxarıda deyilənlər müraciət etdiyimiz dissertasiya mövzusunun aktuallığını şərtləndirir.

Bərdə şəhərinin tarixinə dair yazılı mənbələrdə maraqlı məlumatlar verilmişdir. Moisey Kalankatlının “Albaniya tarixi”[1] adlı əsəri xüsusi qeyd edilməlidir. Ərəb müəlliflərindən İbn əl-Əsir, İbn–Həvqəl, İbn Xordadbeh, Həmdullah Qəzvini və digərlərinin əsərlərində Bərdənin şəhər tikililəri, sənətkarlıq sahələri, təbiəti, təsərrüfatı və bol məhsulları barədə məlumat verilmişdir[2]. Ərəb müəllifi əl-İstəxrinin[3] Bərdənin böyük şəhər olması haqqında geniş məlumat verməsi tarixçi və arxeoloqlar üçün mühüm istiqamət olmuşdur.

Bərdə şəhərinin arxeoloji tədqiqində Aləm Nuriyevin xüsusi xidmətləri olmuşdur. Aləm Nuriyevin rəhbərliyi ilə 1984-1985-ci illərdə Bərdədə aparılan arxeoloji qazıntılarda şəhərin dörd mədəni təbəqəsi müəyyənləşdirilmişdir. Qazıntılar zamanı digər ölkələrdə

---

[1] Moisey Kalankatlı. Albaniya tarixi./ Tərcümə Z.M.Bünyadovundur. – Bakı: Elm, -1993, -235 s.

[2] Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında./ Vəlixanlı N.M. – Bakı: Elm, -1974, -223 s.

[3] Истахри. Китаб масалик ал-мамалик (Книга путей и царств). Перевод Н.А.Караулова. СМОМПК, вып. XXIX, Тифлис, 1901, с.8-39

zərb olunmuş pullar da aşkar edilmişdir. Müxtəlif ölkələrə məxsus pulların tapılmasından məlum olur ki, beynəlxalq ticarət xarakterli fəaliyyətdə Bərdənin böyük rolu olmuşdur. Sənətkarlıq mərkəzi kimi əhəmiyyətli olması da A.B.Nuriyevin "Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi[4] monoqrafiyasında xüsusi vurğulanmışdır.

Müstəqillik illərində Bərdə şəhərinin tarixinin öyrənilməsinə həsr edilmiş Q.Ə.Hacıyevin "Bərdə şəhərinin tarixi (e.ə. III – b.e. XVIII əsri)" monoqrafiyasında[5], A.B.Nuriyev və Ə.H.Babayevin həmmüəllifi olduqları "Bərdə şəhərinin tarixi-arxeoloji oçerki"[6] adlı əsərdə Bərdənin qədim və orta əsrlər tarixi haqqında dəyərli məlumatlar verilmişdir[7].

Bərdə şəhərində A.B.Nuriyev tərəfindən aparılmış (1986-1991-ci illərdə)[8] arxeoloji tədqiqat işləri müstəqillik illərində Arif Məmmədov tərəfindən davam etdirilmişdir (2008-2017-ci illər)[9]. 2015-ci ildə Bərdənin Şortəpə abidəsində, eyni zamanda Bərdə rayonunun Həsənqaya kəndində arxeoloji qazıntı işləri[10] aparılmış, eramızın I minilliyinin əvvəlinə aid şüşə məmulatları aşkar edilmişdir. Abidədəki küp qəbirdən aşkar edilmiş şüşə əşyalar - asmalar, muncuqlar, ətir qabı və s. materiallar tədqiq

---

[4] Nuriyev, A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi./ A.B. Nuriyev.- Bakı: Elm, -1981, -150 s.

[5]Hacıyev, Q.Ə. Bərdə şəhərinin tarixi (b.e.ə.III əsr-b.e.XVIII əsri)./ Q.Ə.Hacıyev. - Bakı: "T" NM, -2000, -320 s.

[6]Nuriyev, A.B., Babayev, Ə.H. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (antik və ilk orta əsrlər) ./ A.B.Nuriyev, Ə.H.Babayev.- Bakı: Nurlan, -2001, -182 s.

[7] Məmmədov, A.M., Hacıyev, Q.Ə. Orta əsr Sütur (Sətəl) şəhərinin arxeoloji tədqiqinə dair .// Qarabağın tarixi arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi, Elmi praktik konfrans materialları. Bakı Xəzər Universitetinin nəşriyyatı 2009. 91-96 s.

[8] Nuriyev, A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı. -1986-cı il.// AMEA AEİÇTİBA, inv. N: H-453, -s.5

[9] Bərdə arxeoloji ekspedisiyası tərəfindən Bərdənin Şatırlı kəndi yaxınlığında "Şortəpə" adlı qədim və orta əsr yaşayış yerində aparılmış arxeoloji qazıntıların hesabatları dissertasiya işinə daxil edilmişdir.

[10] Məmmədov, A.M. Bərdədə 2015-2016-cı illərdə aparılmış arxeoloji qazıntı və çöl tədqiqat işlərinin nəticələri. / A.M.Məmmədov, Ə.H.Babayev, T.V.Əliyev, M.İ.Rəcəbov, S.A.Quliyeva, H.A.Məmmədzadə.// Azərbaycanda Arxeoloji Tədqiqatlar.- 2015-2016, -Bakı: -2017, -s.234-245

edilərək dissertasiya işinə əlavə edilmişdir.

2015-2016-ci ildə "Bərdənin Arxeoloji Tədqiqat layihəsi"[11] əsasında Bərdənin Qaratəpə ərazisində İngiltərə arxeoloqu Paul Vordvorsun rəhbərliyi və ümumilikdə 24 arxeoloqun iştrakı ilə arxeoloji qazıntı işləri aparılmışdır. Tədqiqat nəticəsində 2017-ci ildə Qaratəpə ərazisində aşkar edilən lV-V əsrlərə aid yaşayış məskənindən çoxlu sayda şüşə qab və bəzək əşyalarının hissələri aşkar edilmişdir. Dissertasiya işlənilərkən Qaratəpədən aşkar edilən arxeoloji şüşə məmulatının tədqiqi də Bərdə şəhərinin şüşə sənətkarlığının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb etmişdir.

Tədqiqat işi aparılarkən arxeoloji şüşələrin kimyəvi tərkibini öyrənən alimlərin əsərlərinə də müraciət edilmiş və müqayisəli təhlil aparılmışdır.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiya işinin tədqiqat obyektini Bərdə şəhərinin qədim dövr və orta əsrlər yaşayış yerləri, qəbir abidələri, müdafiə tikililərində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış şüşə məmulatı təşkil edir.

Dissertasiya işinin predmetini isə Bərdə şəhərinin qədim və orta əsrlər arxeoloji abidələrindən əldə olunan arxeoloji materialların təhlil olunması, oxşar-fərqli cəhətləri, xronoloji təhlili və maddi-mədəniyyət haqqında ümumi təsəvvür yaradılması təşkil edir.

Bərdədən aşkar edilmiş şüşə məmulatının istehsal dövrü xronoloji cəhətdən antik dövr, ilk orta əsrlər, inkişaf etmiş orta əsrlər dövrünü əhatə edir. Bərdə şüşə məmulatının istehsalının inkişaf dövrü isə Vlll-lX əsrlərdir.

Mövzunun mənbəşünaslıq bazasını Bərdə şəhərində aparılan arxeoloji tədqiqatlar (XX əsrin 80-ci illərindən son dövrlərə qədər) zamanı aşkar edilən şüşə məmulatı, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Arxivində saxlanılan arxeoloji hesabatlar, ekspedisiya üzvlərinin çap edilmiş və edilməmiş hesabatları və çəkdiyi fotolar təşkil edir.

---

[11] Bərdənin arxeoloji tədqiqi layihəsi/ Paul Vördsvorz.;üzvləri M.Ağalarov, K.Kempbel və b.Azərbayycan və Qafaz dilləri və mədəniyyətləri üçün N.Gəncəvi adına proqramı, Oksford Universiteti. 31 iyul-9 sentyabr, Bakı, 2017. S.31.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda məqsəd Bərdədən aşkar edilmiş bütün növ şüşə məmulatını öyrənmək (morfoloji, texnoloji və s.), əhalinin məişət həyatında onlardan istifadə edilməsini dəqiqləşdirmək, eləcə də ölkə iqtisadiyyatında yerinin müəyyən etməkdən ibarətdir. Aşkar edilmiş müxtəlif növ şüşə məmulatı və onun istehsalı ilə əlaqədar olan materiallar, müəyyən dərəcədə Azərbaycanda qədim dövr və orta əsrlərdə şüşə istehsalının tarixinin ümumi şəklini yaratmağa imkan verir. Bu məqsədlə Bərdədən aşkar edilmiş müxtəlif kateqoriyalı şüşə məmulatı ilə bağlı bütün məlumatlar sistemləşdirilir. Tədqiqat işində aşağıdakı konkret vəzifələr yerinə yetirilir:

-Dissertasiya işlənərkən qarşıya qoyulan əsas vəzifələrdən biri olan şüşə məmulatının xronologiyası tərtib edilir;

-Bərdə şəhərinin Azərbaycan tarixində yeri və onun tarixi-arxeoloji baxımından öyrənilməsi;

-Bərdədən aşkar edilən müxtəlif kateqoriyalı şüşə məmulatı ilə bağlı bütün məlumatlar sistemləşdirilir;

-Bərdə şəhərindən aşkar edilmiş şüşə məmulatının təsnifatını vermək;

-Şüşə məmulatları formalarına, təyinatına və istehsal texnologiyasına görə bölünür;

-Bərdə şəhərinin şüşə məmulatının texnoloji və texniki xarakteristikası şərh edilir.

**Tədqiqatın metodları**. Qarşiya qoyulan məqsədlərə nail olmaq üçün tədqiqat prosesində müxtəlif elmi-tədqiqat üsullarından istifadə edilmişdir. Bu üsullardan ən əsas olan və arxeologiyada istifadə edilən tipoloji müqayisə üsuludur. Dissertasiya işi yazılarkən Bərdənin qədim və orta əsrlər dövrü arxeoloji abidələrində aşkarlanmış şüşə məmulatının öyrənilməsində tipoloji təhlil, tarixi-müqayisəli təhlil, təsvir, təsnifat və elmi-tarixi ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

Arxeoloji qazıntılar nəticəsində Bərdə şəhərinin qədim və orta əsrlər arxeoloji abidələrindən aşkar edilmiş şüşə məmulatının təsnifatı verilmişdir. Tədqiqat işində Bərdə şəhərindən aşkar edilən şüşə məmulatının Azərbaycanın digər şəhərlərindən aşkar edilmiş şüşə məmulatı ilə müqayisəli təhlili aparılmışdır. Tədqiqat aparılarkən

Azərbaycan arxeoloqlarından A.B.Nuriyevin, F.L.Osmanovun, A.M.Məmmədovun, T.M.Dostiyevin eyni zamanda qədim arxeoloji şüşələrin tarixini, kimyəvi tərkibini və istehsal texnologiyasını öyrənən digər ölkə alimlərindən M.A.Bezborodovun, Y.L.Şapovanın, V.A.Qalibinin, N.N.Kaçalovun və digər tədqiqatçıların tədqiqat metotlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Bərdə ilk orta əsrlərdə iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən intensiv inkişaf dövrü keçirmişdir. Bərdə şəhərinin yerləşdiyi ərazidə intensiv yaşayışın mövcud olması onun tədrici inkişafına, istehsal mərkəzinə səbəb olmuş, mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir.
- Orta əsrlərdə Bərdə bir sıra sənətkarlıq məhsullarının böyük ixracçısı olmuşdur. Bu zaman şüşə məmulatı mühüm yer tutmuşdur.
- Azərbaycan ərazisində sənətkarlıq məhsulları istehsal etmək üçün mövcud olan xammal materiallarının zənginliyi bu şəhərdə şüşə məmulatı istehsalına çox böyük imkan vermişdir. Bu səbəbdən Bərdədə şüşə məmulatı istehsalı geniş inkişaf etmişdir.
- Qədim Bərdə şəhərinin yerləşdiyi regionun mis-mədən rayonlarının yaxınlığında olması yerli filizlərdən geniş istifadə etməyə imkan vermişdir. Bu da sənətkarlığın bir çox növlərinin, xüsusilə də şüşə məmulatı istehsalı kimi sənət növünün yaranmasına və inkişaf etməsinə səbəb olmuşdur. Bərdənin yerləşdiyi regionda şüşə istehsal etmək üçün əsas materiallar qum və soda bol olmuşdu. Bərdə şəhərindən aşkar edilmiş şüşənin aparılmış spektral analizi göstərir ki, onun tərkibində çoxluğu şüşə istehsal etmək üçün xammal materialı kimi dəniz qumu təşkil etmişdir.
- Şüşə üçün digər mühüm xammal materialı küldür ki, Bərdə ərazisində meşələrdə müxtəlif növ ağac və kollarının olması bu baxımdan mühüm rol oynamışdır.
- Bərdə arxeoloji qazıntılarından aşkar edilmiş şüşə məmulatı formasına və təyinatına görə 3 qrupa bölünür: süfrə qabları; laboratoriya və ətriyyat qabları; bəzək əşyaları.
- Bərdə şüşə ustaları şüşə məmulatını bazarın tələbatına görə istehsal etməklə yanaşı bu məmulatları müxtəlif üsullarla istehsal edərək alıcıların tələbatını ödəmişlər. Şüşə qab istehsalında qəlibdə

tökmə, qəlibdə üfürmə və sərbəst üfürmə üsulundan istifadə edilmişdir.

- Bərdə ustaları istehsal etdiyi süfrə qablarını müxtəlif üsullarla naxışlayırdılar. Bu zaman müxtəlif üsullardan, xüsusilə oyma üsulundan (XI-XII əsrlərdə) daha çox istifadə edilmişdir.

- IX əsrdən başlayaraq Şərqin müsəlman dünyasının kimyəvi qabı kimi xarakterik olan alembiklərin Bərdədən aşkar edilməsi bu ölkələrlə iqtisadi-ticarət əlaqələrini təsdiq edir.

- Bərdədən aşkar edilmiş şüşə məmulatı içərisində çoxluq təşkil edən flakonların bir çoxu qəlibdə, digərləri isə sərbəst üfürmə ilə hazırlanmışdır.

- Bərdədə 5 qrup flakon aşkar edilmişdir ki, bunların da bəziləri yalnız Bərdə üçün xarakterikdir. Bəzilərinin oxşarları Azərbaycanın digər ərazilərindəki arxeoloji qazıntılardan və xarici ölkələrinin abidələrdən də aşkar edilmişdir.

- Bərdənin arxeoloji şüşə nümunələri kifayət qədər böyük xronoloji dövr təşkil edir. Antik dövrdən son orta əsrədək olan dövrə aid arxeoloji şüşə məmulatının istehsal dövrünü xronoloji cəhətdən antik dövr, ilk orta əsrlər, inkişaf etmiş orta əsrlər dövrünə bölünüqr. Bərdə şüşə məmulatının çiçəklənmə dövrü VIII-IX əsrlərə düşür.

- Bərdə şüşə məmulatı bir neçə kimyəvi tərkibdən – natirium-kalium, kalsium-maqneziumdan ibarətdir. Bu tipə aid olan məmulatların tərkibi bir tip qarışıq xammaldan müxtəlif bitki külündən ibarətdir ki, bu qarışıq qədim dövrdə Şərq şüşəişləmə məktəbində ənənəvi olaraq istifadə edilmişdir.

- Dissertasiya işində müstəqil şüşəişləmədə ayrıca bir sahə olan şüşə bəzək əşyaları üzərində geniş tədqiqat nəticələri əldə edilmişdir. Bərdə arxeoloji qazıntıları zamanı şüşə bəzək əşyalarına əsasən inkişaf etmiş orta əsrlərə aid təbəqədə rast gəlinmişdir.

- Şüşə bəzək əşyaları IX əsrdə şirli saxsı məmulatının kütləvi şəkildə istehsalı ilə bağlı olmuşdur. Saxsı qabların üzərinin şirlənməsi üçün hazırlanan şüşə tərkibli məhluldan eyni zamanda şüşə bəzək əşyası düzəltmək üçün də istifadə edilmişdir.

- Bərdə şəhərində şüşə məmulatı istehsalı ümumi sənətkarlıq sahəsinin əsas növlərindən biri kimi inkişaf etmiş və dəyər qazanmışdır.

- Bərdədə şüşə istehsalı və məmulatı xalqın məişətində və həyatında xoşbəxtlik, gözəllik və təmizlik simvolu kimi məşhur olmuşdur. Şüşənin bu keyfiyyəti xalqın folklorunda, poeziyasında, etnoqrafiyasında və xalq inanclarında öz əksini tapmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

Dissertasiya işi Albaniyanın paytaxtı olan Bərdənin şüşə məmulatının qədim və orta əsrlər dövrünün öyrənilməsinə həsr olunmuş ilk ümumiləşdirici elmi tədqiqat işidir.

Azərbaycan tarixşunaslığında ilk dəfə olaraq Bərdə şüşə məmulatı və onun istehsalı təkcə tarixi-arxeoloji planda deyil, həmçinin kimyəvi-texnoloji və texniki aspektdə tədqiq edilir. Həmçinin, Bərdə şüşə məmulatı folklor-etnoqrafik aspektdə tədqiq edilərək elmi ictimaiyyətə çatdırılır. Bərdə şəhərinin nəhəng sənətkarlıq mərkəzlərindən biri olaraq Azərbaycanın şüşə məmulatı tarixi səhnəsində yeri müəyyənləşdirilir. Bərdə şəhərinin şüşə məmulatının əsas xüsusiyyətini göstərən əlamətlərdən biri – kimyəvi tərkibi Azərbaycanın həmdövr abidələri və digər ölkələrin şüşə nümunələrinin kimyəvi xüsusiyyətləri ilə müqayisə edilərək ümumi nəticələr çıxarılır.

Tədqiqat zamanı Bərdənin arxeoloji şüşələrinin yerli istehsal xüsusiyyətləri müəyyən edilmiş, onları gətirilmə şüşə məmulatından fərqləndirən əlamətləri də araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bərdənin sənətkarlıq tarixinin bir sahəsi olan şüşə məmulatının tarixinin öyrənilməsi mühüm praktiki əhəmiyyət kəsb edir. Azərbaycanda şüşə sənətkarlığının inkişaf tarixini izləmək üçün tədqiq edilən dissertasiya mövzusunun əhəmiyyəti yüksəkdir. Bu tədqiqat işi Azərbaycanda qədim şüşə məmulatının istehsalı tarixi, şüşə sənətkarlığı və eyni zamanda yüksək, nəfis süfrə mədəniyyətinin öyrənilməsi üçündə əhəmiyyətlidir. Tədqiq edilən arxeoloji şüşələrin qədim dövrdən günümüzə daşıdığı etnoqrafik məlimatlarda, həmin dövrün dini dünya görüşlərinin, inanclarının öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Tədqiqat işinin nəticələrindən sənətkarlıq tarixi ilə məşğul olanlar, elm və təhsil sahəsində tədqiqat aparan tarixçilər, eləcə də təhsil müəssisələrinin bakalavr və magistrlar istifadə edə bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisar olunmuş sözlər, işə əlavə edilmiş tablo və şəkillərdən, illustrasiyalardan ibarətdir. İddiaçının “Qədim dövrdə və orta əsrlərdə Bərdə şəhərinin şüşə məmulatı”adlı elmi tədqiqat işinin əsas nəticələri AMEA Arxeologiya, Antropologiya İnstitutunun “Azərbaycanın orta əsrlər dövrü arxeologiyası” şöbəsində müzakirə edilərək nəşr olunmuş 22 məqalə və tezisdə elmi ictimaiyyətə çatdırılmışdır. Dissertasiya işinin əsas nəticələrinə həsr olunmuş məruzələr Türkiyə, Rusiya, Ukrayna və Azərbaycanda təşkil olunmuş beynəlxalq konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Arxeologiya və Antropologiya İnstitutunun “Azərbaycanın orta əsrlər dövrü arxeologiyası” şöbəsində yerinə yetirilmiş, İnstitutun digər şöbələrindən dəvət edilmiş əməkdaşların iştirakı ilə müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı və illüstrasiyalardan ibarətdir. Dissertasiya işinin “Giriş” hissəsi 20 min 413 işarədən, I fəsli 60 min, 318 işarədən, II fəsli 66 min, 411 işarədən ibarətdir. Dissertasiya işinin III fəsli 65 min, 627 işarədən, “Nəticə” hissəsi isə 8 min 541 işarə ilə əhatə olunub. Dissertasiya işinin mətni (ədəbiyyatsız və illüstrativ materiallarsız) ümumilikdə, 221 min, 311 işarə təşkil edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işi giriş, üç fəsil, nəticə, cədvəllər, istifadə edilmiş ədəbiyyat siyahısı, istifadə edilmiş ixtisarların siyahısı, illüstrativ materiallardan, xəritə, şəkil və tablolardan ibarətdir.

**“Giriş”**də mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, dissertasiyanın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın quruluşu haqqında, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla, dissertasiyanın işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

**I fəsil "Bərdə şəhərinin qədim və orta əsrlər şüşə məmulatının Azərbaycan tarixində yeri və onun tarixi-arxeoloji baxımdan öyrənilmə vəziyyəti"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. Burada, Bərdə şəhərinin Azərbaycan tarixində yeri və rolu, Bərdə şəhərinin tarixi-arxeoloji baxımdan öyrənilməsi və şəhərin qədim sənətkarlıq mərkəzi olması öz əksini tapır. Bu fəsildə Bərdənin yerləşdiyi ərazinin coğrafi-geostrateji arealı relyef və geoloji quruluşu, flora və fauna aləmi, həmçinin yeraltı və yerüstü sərvətləri haqqında məlumat verilərək şüşə məmulatı istehsalı üçün hər cür şəraitin olması əsaslandırılmışdır. Bərdə şəhərinin qədim və orta əsrlər şüşə məmulatının tədqiqinin Azərbaycan tarixində yeri və onun tarixi-arxeoloji baxımdan öyrənilmə vəziyyəti tədqiq edilir.

**"Bərdə şəhərinin qədim və orta əsrlər tarixi-arxeoloji abidələrinin ümumi səciyyəsi"** adlı birinci yarımfəslində yazılı mənbələrə istinad edilərək, Bərdə şəhərinin qədim və orta əsrlər şüşə məmulatının Azərbaycan tarixşünaslığında mühüm yeri və rolu olduğu şərh edilir. Bildirilir ki, Bərdə şəhəri ilk orta əsrlərdə ölkənin siyasi, iqtisadi və mədəni həyatında mərkəzi şəhər kimi mühüm rol oynamış, xalqımızın tarixində, xüsusilə də sənətkarlıq tarixində dəyərli ənənələr yaratmışdır.

Bərdə şəhərinin tədqiqinə dair elmi ədəbiyyat, şəhərin ümumi tarixi-coğrafi şəraiti, təbii sərvətləri, iqtisadi qüdrəti, sənətkarlıq-ticarət həyatına dair çox maraqlı məlumatlar əldə etməyə imkan verir. Arxeoloji qazıntılar zamanı tapılan dəlillər yazılı mənbələrdə olan məlumatları təsdiq edir.

XX-əsrin 80-ci illərindən Bərdədə aparılan arxeoloji tədqiqatların müstəqillik illərində daha da inkişaf etməsi, aşkar edilən maddi mədəniyyət nümunələrinin tədqiqi, şəhərin sənətkarlıq tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bərdə şəhərinin və xüsusilədə şüşə məmulatının tədqiqi zamanı Azərbaycanın digər iri yaşayış məntəqələri ilə müqayisələr aparılması da tədqiqat üçün böyük əhəmiyyət kəsp edir. Bu baxımdan Azərbaycan şəhərlərinin antik və orta əsrlərdə həyatı öyrənilərkən Bərdənin digər şəhərlərlə paralellərinə xüsusi diqqət yetirilmişdir.

**"Bərdə şəhərinin qədim və orta əsrlər tarixi və şüşə məmulatı istehsalının Azərbaycanın sənətkarlıq tarixində yeri"**

adlı ikinci yarımfəslində şəhər tarixi-arxeoloji baxımdan tədqiq olunur. Burada, Bərdə tarixini öyrənmək üçün yazılı mənbələrlə yanaşı onun daha qədim dövrə aid olmasını, şəhərin əmələ gəlməsini şərtləndirən zəminin öyrənilməsi üçün arxeologiyaya müraciət edilməsi öz əksini tapmışdır.

Bərdə ərazisində XIX əsrin sonu - XX əsrin əvvəllərində əcnəbi arxeoloqlar tərəfindən başlamış tədqiqatların, Azərbaycan tarixçiləri və arxeoloqları tərəfindən davam edildiyi bildirilir. Bərdə şəhərindən müxtəlif dövrlərə aid maddi mədəniyyət nümunələrinin aşkar edilməsi, şəhər ərazisində qədim dövrdən etibarən intensiv yaşayışın olması, qədim və orta əsrlər dövründə mövcud olan həyat və məişətinin zənginliyi şərh olunur.

**"Bərdə şəhəri qədim sənətkarlıq mərkəzi kimi"** adlı üçüncü yarımfəslində Bərdə şəhərində müxtəlif sənət növləri ilə məşğul olan sənətkarlar məhəllələrinin olmasına dair tədqiqat əsərlərinin verdiyi maraqlı məlumatlar şərh edilir. Bu sənət növlərinin xüsusilə fərqlənənləri dulusçuluq, metalişləmə, zərgərlik və toxuculuqla yanaşı şüşə istehsalının xüsusi yeri olduğu bildirilir[12]. Burada, orta əsr mənbələrində və elmi ədəbiyyatda Bərdə şəhərinin nəhəng sənətkarlıq mərkəzi kimi qeyd olunması, həmin dövrün sənətkarlığının arxeoloji materiallar əsasında öyrənilməsi, arxeoloji qazıntılar zamanı aşkar edilmiş materialların Bərdə şəhərinin həm qədim dövrü, həm də orta əsrlərin bütün mərhələləri üzrə sənətkarlıq haqqında elmi nəticələr çıxarmağa geniş imkanlar yaratdığı əsaslandırılır. Həmçinin, sənət növlərinin meydana çıxması inkişaf dinamikası səviyyəsində sənətkarlığın ayrı-ayrı sahələrinə təsir göstərməsi təhlil edilir[13].

Dissertasiya işinin **"Bərdə şəhərindən aşkar edilmiş şüşə məmulatı və onun təsnifatı"** adlı **ll fəslində** Bərdə şəhərindən aşkarlanmış qədim və orta əsrlərə aid şüşə məmulatının təhlili və onun təsnifatı verilir. Arxeoloji şüşələrin təsnifatı-şüşə süfrə qabları, şüşə loboratoriya və ətriyyat qabları, şüşə bəzək əşyaları, şüşə qolbaqlar,

---

[12] Məmmədov, A.M. Bərdədə son arxeoloji qazıntı işləri // A.M.Məmmədov. -Bakı: Arxeologiya jurnalı, -2010, № 3, -s.28-37.

[13] Məmmədov, A.M. Cəfərov, P., Hasilov, Ş., Əliyev, T. Dünya ticarətində Bərdə şəhərinin rolu / A.M.Məmmədov, P.Cəfərov, Ş.Hasilov, T.Əliyev.//-Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, -2005, №2, -s.47-52

şüşə üzüklər,  muncuq və asmalar formasında tədqiq edilmişdir. Bu fəsil altı bənddə tədqiq edilmişdir. Arxeoloji qazıntılar zamanı Bərdənin arxeoloji abidələrinin  müxtəlif təbəqələrindən əldə edilmiş şüşə nümunələrinin elmi təhlili şüşə sənətkarlığının təkamül prosesini izləməyə imkan verir. Həmin mədəni təbəqələr üzrə şüşə məmulatının araşdırılması göstərir ki, şüşə bəzək əşyalarının istehsalına antik dövrdə, şüşə qab-qacaq istehsalına isə ilk orta əsrlərdə başlanmışdır.

II fəslin **“Bərdədən aşkar edilmiş şüşə məmulatı və onun tipoloji təsnifatı”** adlı birinci yarımfəslində bildirilir ki, Bərdə arxeoloji qazıntılarından aşkar edilmiş şüşə məmulatı öz forması və təyinatına görə tamamilə müxtəlifdir. Yazılı mənbə məlumatları və arxeoloji tədqiqatların nəticələrindən görünür ki, Bərdədə şüşə məmulatları həm şəhər əhalisinin tələbatını ödəmiş, həm də xarici bazarlara idxal edilmişdir.

Dissertasiya işinin II fəslinin ikinci yarımfəsli “**Şüşə süfrə qabları”** adlanır. Burada, şəhər həyatı üçün əhəmiyyətli olan  şüşə məmulatının klassifikasiyası verilir. Belə ki, süfrə qabları, laboratoriya və parfümeriya qabları, şüşə bəzək əşyaları ayrı-ayrı bəndlərdə təhlil edilir.

Bərdə arxeoloji qazıntılarından aşkar edilmiş şüşə süfrə qabları öz formasına, təyinatına, hazırlanma texnikasına görə tamamilə müxtəlifdir. Tədqiqatlar zamanı Bərdə şəhərindən aşkar edilmiş şüşə süfrə qabları müxtəlif ölçülü kasalardan, kuzələrdən, qrafinə oxşar qablardan, piyalələrdən və s. formalı qablardan ibarətdir. Bu qabların tədqiqi Bərdə üçün orijinal olan orta əsr şüşə sənətkarlığının xarakterini təyin etmək, onların Azərbaycan sənətkarlıq tarixində yeri və rolunu öyrənmək nöqteyi-nəzərindən böyük maraq kəsp etmişdi.

Tədqiqatlar aparılarkən şüşə süfrə qablarının istehsalının inkişafını isə Vl-Vlll-əsrlərdə izləyirik.

Tədqiq edilən şüşə süfrə qablarının Azərbaycanın digər şəhərlərində aşkar edilən şüşə qablarla oxşar və fərqli cəhədləri də müqayisə edilir.

Qablar müxtəlif naxışlarla, müxtəlif rənglərlə bəzədilmişdir. Bərdədən aşkar edilən şüşə süfrə qablarını tədqiq edərkən bir xarakterik cəhət üzərində dayanmağa  ehtiyac var. Bu, hər şeydən əvvəl həmin qabların Bərdə ustalarının bədii zövqünə  uyğun olaraq

müəyyən edilmiş naxışlanmasıdır. Tədqiq etdiyimiz dövrdə şüşə məmulatının istehsal üsulunun müəyyənləşdirilməsi, əhalinin məişətində müxtəlif növ şüşə qabların rolunun öyrənilməsi belə bir nəticə çıxarmağa imkan verir ki, Bərdənin şüşə ustaları müxtəlif görünüşlü və təyinatlı şüşə məmulatı hazırlayırdılar.

II fəslin üçüncü yarımfəsli **"Şüşə laboratoriya və ətriyyat qabları"** adlanır. Bu yarımfəsildə bildirilir ki, Bərdə arxeoloji qazıntılarından aşkar edilmiş şüşə məmulatı öz forması və təyinatına görə tamamilə müxtəlifdir. Digər orta əsr şəhərlərində olduğu kimi hissələr şəklində əldə edilmiş bu nümunələr məişət əşyaları, yaxud bədii əhəmiyyət kəsb edən məmulatlardır. Bu qablardan orta əsrlərdə dərman və ətir saxlamaq üçün geniş istifadə edilirdi. Azərbaycanda bu tip qablar Vlll-əsrdən daha geniş istifadə olunurdu. Bu qablar üfürmə üsulu ilə hazırlanırdı. Bərdə şəhərindən bu kiçik həcimli qabların aşkar olunması isə təsadüfü deyildi. Çünki, bu şüşə qablarda həmdə nadir bitki cövhərləri, dərman məhlullarının xaricə daşınması nəzərdə tutulurdu. Buradan da belə nəticə çıxarmaq olar ki, ilk orta əsrlərdə Bərdə şəhərində əczaxanalar fəaliyyət göstərmişdir. Qəbirlərdən aşkar edilən kiçik ətir qabları isə içərisində xüsusi məhlul olmaqla qəbirlərə ölünün yanına hədiyyə kimi qoyulurdu.

Bərdə şəhərindən aşkar edilən kiçik həcmli qablarında yalnız ətir və dərman məhlulları deyil, boya saxlamaq üçündə istifadə edilirdi.

II fəslin **"Şüşə bəzək əşyaları"** adlı dördüncü yarımfəslində Bərdədə aparılmış arxeoloji qazıntılar zamanı xeyli sayda şüşə bəzək əşyaları aşkar edildiyi şərh olunur. Azərbaycanda bəzək əşyaları müstəqil sənət növü kimi qədim tarixə malikdir[14]. Nəinki Bərdədə, ümumilikdə tarixdə ilk istehsal edilən şüşə əşyalar məhz bəzək əşyaları olmuşdur. Onun inkişafı isə yalnız IX əsrdən başlanmışdır. Bu isə həmin dövrə aid çoxsaylı maddi qalıqların tapılması ilə təsdiqini tapır.

İstehsal prosesi zamanı şüşə bəzək əşyası düzəltmək üçün hazırlanmış yarımfabrikant materiallar olan şüşə ərintisindən istifadə olunurdu. Şüşə bəzək əşyalarını müxtəlif formalı və müxtəlif rəng

[14] Rəcəbova, B.B. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və isehsalı tarixindən (IV-XVII əsrlər)./ B.B.Rəcəbova. – Bakı: Elm, -2009, -180 s.

çalarlarında hazırlanırdı.Bərdənin arxeoloji abidələrindən kifayət qədər müxtəlif rəngli muncuq və qolbaqlardan ibarət  şüşə bəzək əşyası aşkar edilmişdir. Bərdə şəhərindən aşkar edilmiş şüşə bəzək əşyalarının çoxu arxeoloji dəlillərə əsasən antik dövrə (e.ə. lV-b.e.lll-əsri) aid edilir.Tədqiqat mövzusu araşdırılarkən müxtəlif tipli və müxtəlif çeşidli bəzək əşyaları hər tərəfli tədqiq edilmiş, təsviri və təsnifatı verilmişdir. Dissertasiya işində Bərdədən aşkar edilmiş müxtəlif tipli və müxtəlif çeşidli şüşə bəzək əşyaları hərtərəfli tədqiqata cəlb edilmiş, təsviri və təsnifatı verilmişdir. Bərdədən aşkar edilmiş şüşə bəzək əşyaları şərti olaraq üç böyük qrupa bölünərək: 1. Qolbaqlar, 2. Muncuqlar, 3. Üzüklər adı altında tədqiq edilmişdir.

II fəslin beşinci yarımfəsli **"Şüşə qolbaqlar"** adlanır. Bu yarımfəsildə Bərdədən aşkar edilmiş qolbaqların forma və rənginə görə çox müxtəlif olduğu bildirilir. Miqdari analiz nəticələri göstərir ki, qolbaqlar bəzək tipli əşyalar içərisində kütləvi yayılan növdür. Əsasən, üç növ qolbağ forması geniş yayılmışdır ki, bunlardan gövdəsi dairəvi, hamar-yastı və burulmuş qolbağları misal göstərmək olar. Bərdədən aşkar edilmiş şüşə qolbaqların rənginə əsaslanaraq, ayrı-ayrı xronoloji dövrə bölmək olar. Qolbaqlar içində qara, yaşıl, göy, mavi, şəffaf rəngli şüşə qolbaqlar üstünlük təşkil edir.

II fəslin **"Şüşə üzüklər, muncuqlar və asmalar"** adlı altıncı yarımfəslində Bərdə arxeoloji qazıntılarından 350-yə qədər aşkar edilmiş bəzək əşyalarının geniş yayılmış növlərindən biri olan muncuqlardan bəhs edilir. Bərdə şüşə bəzək əşyaları içərisində şüşə üzüklərin və digər növ bəzək əşyaları ilə müqayisədə çox geniş yayılmaması haqqında məlumat verilir. Bu üzüklər əsasən yastı-çıxıntılı, qaşsız istehsal edilmişdir. Bu üzüklər lX-Xll əsrlər təbəqəsindən aşkar edilmişdir.

Bərdədən aşkar edilmiş bəzək əşyalarının ən geniş yayılmış növü olan muncuqlar morfoloji və texnoloji baxımdan müxtəlif informasiyaya malikdir. Morfoloji baxımdan bir neçə qrupa bölünən muncuqlar yumru, rombvari, boruşəkilli, vintşəkilli, qabırğavari, konusvari görünüşə malikdir [15] . Muncuqlar tədqiq edilərkən

[15] Безбородов, И.А. Стеклоделие в древней Руси. / И.А.Безбородов. -Минск: Академия наук БССР,-1956, -92 с.

Azərbaycanda (Qafqaz Albaniyasında) istehsal edilən muncuqların bütün formasına rast gəlinir. Yaşıl rəng və qəhvəyi rəngdə olan rənglərin çalarlarında rast gəlinən şüşə muncuqlar istehsal xüsusiyyətlərinə görə yerli şüşələrdir.

Bərdədən aşkar edilmiş şüşə bəzək əşyası olan asmaların bir ədədi "şeytan" adlandırılmış şüşə əşyadır. Bu analoqu olmayan yeganə nümunə bozumtul, şəffaf şüşədən keyfiyyətli hazırlanmışdır. Öyrənilən bu əşya hansısa heyvanın başını xatırladır. Asma XII əsrə aid arxeoloji təbəqədən aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, həmin əşya stilizə edilmiş zoomorf predmet olub, etnoqrafik məna daşıyır.

Bərdədən tapılmış muncuqlar arasında yerli istehsal məhsulları üstünlük təşkil edir. Şəhərin ticarət yolları üzərində yerləşməsi gətirilmə muncuqların əldə edilməsinə səbəb olmuşdu.

Dissertasiya işinin **III fəsli - "Bərdə şüşə məmulatı istehsalının texnoloji və texniki xarakteristikası"** adlanır. Bu fəslin **"Bərdə şüşə məmulatının kimyəvi-texnoloji xüsusiyyəti"** adlı birinci yarımfəslində qədim dövrdən etibarən bir sıra sənətkarlıq sahələrinin yaranması üçün xüsusi şərait olması şərh edilir. Burada göstərilir ki, sənətkarlıq növləri içərisində şüşə sənətkarlığı da xüsusi yer tutmuşdur. Bərdə şəhərinin Kiçik Qafqaz dağ silsiləsinə yaxınlıqda yerləşməsi şüşənin təbii xammalının əldə edilməsi üçün əlverişli etmişdir. Eyni zamanda şüşə məhlulu almaq üçün xammal qarışığını əritməkdən ötrü yüksək istilik əldə etməyə yarayan təbii ağac növlərinin bitdiyi bol meşələr olmuş və onlardan istifadə edilmişdir.

Şüşə istehsal etmək üçün lazım olan xammalın toplanması və qarışdırılması ustadan böyük bacarıq tələb edirdi. Bu ilk növbədə, tərkibində şüşə istehsalı üçün əsas materialın – kvars (silisium oksid-$SiO_2$) olan qumun toplanmasından ibarətdir. Şüşə istehsalı üçün istifadə edilən kvars tərkibli xammal dağ suxurlarının təbii aşınması nəticəsində əmələ gəlirdi. Eyni zamanda, qumun tərkibində digər maddələr də var idi. Bunlar aluminium oksid ($A1_2O_3$), dəmir oksid ($Fe_2O_3$), yaxud maqnezium oksid ($MgO$), kalsium oksid ($CaO$), kalium oksid ($K_2O$) və s. ibarət idi. Kalsium ($CaO$) məhlulu ağac

külündən alınırdı[16].

Bərdəli ustalar şüşə istehsalı zamanı şüşə məmulatının təmiz, şəffaf və yaraşıqlı olması üçün müxtəlif üsullara əl atırdılar. Bunun üçün onlar müxtəlif materiallardan istifadə edirdilər. Bunu Bərdədən arxeoloji qazıntılar zamanı aşkar edilmiş şüşə nümunələrinin tərkibində kalsium oksidin çox olmasını təyin edən kimyəvi analizlər sübut edir. Bu da həmin şüşələrin istehsalında ağac külündən geniş istifadə edildiyini göstərir. Maraqlıdır ki, usta şüşə qatışığına ərimə prosesi zamanı külü qələvi kimi əlavə edirdi. Onlar qumu ələkdən keçirərək, içərisindəki yad, lazımsız cismləri kənarlaşdırmalı idi. Çünki, qum qarışığının tərkibində lazımsız maddələr (əhəng daşı və çay daşı qırıqları, iri qum parçaları və s.) olurdu ki, bu da şüşə məhlulunun lazımi şəkildə əriməsinə imkan vermir, həmçinin məhlulun tərkibinin istənilən təmizlikdə alınmasına mane olurdu.

Bərdə şüşə məmulatının istehsal texnologiyasının tədqiqi onu deməyə əsas verir ki, şüşə məmulatı istehsalına dair qədim və orta əsrlərdə böyük təcrübə yaranmış, inkişaf etmiş və ənənəyə çevrilmişdir. Bərdənin və digər bir sıra abidələrdən aşkar edilən qədim şüşələrin kimyəvi analizi ilə müqayisələr aparılaraq mühüm nəticələr əldə edilmişdir.

III fəslin **“Şüşə məmulatının istehsal texnikası**” adlı ikinci yarımfəslində şüşə məmulatının hazırlanması bacarığı, istehsal prosesi zamanı istehsal üsul və vasitələri haqqında biliklər toplusu olduğu bildirilir.

İbtidai şüşə məmulatı istehsal üsulu olan qəlibdə tökmə üsulundan başlayan Bərdə şüşə istehsalı, qəlibdə üfürmə və sərbəst üfürmə[17] üsulları ilə davam etdirilmiş, müxtəlif çeşidli və müxtəlif formalı məmulat istehsal edilmişdir. Şübhəsiz ki, feodalizmin ilkin dövründə natural xarakter daşıyan şüşə sənətkarlığı, bazar üçün əmtəə istehsal edən sahəyə çevrilərək inkişaf etmişdir.

Bərdə ərazisinin şüşə sənətkarlığının yaranması və inkişafı üçün əlverişli şəraitə malik olması onun təbii-coğrafi xüsusiyyətinin

---

[16] Фоменко, В.П. О технике изготовления стеклянных изделии из Байлакана (Оренкала).// В.П.Фоменко. – Баку: МКА, том VIII, -1976, -с.219-22

[17] Качалов, Н.Н. Стекло. / Н.Н.Качалов. -Москва: Издательство Академии наук СССР,- 1959, -465 с.

əlamətidirsə, xeyli sayda müxtəlif növlü, formalı, çeşidli və rəngarəng şüşə məmulatının əldə edilməsi sənətkarlığın inkişafının səciyyəvi xüsusiyyətidir.

Bərdə şəhərinin şüşə məmulatının texnoloji və texniki xarakteristikasının təhlili aparılarkən onun kimyəvi-texnoloji xüsusiyyəti, şüşə məmulatının istehsal texnikası və texnologiyası diqqət mərkəzində saxlanılır ki, bu da süşə məmulatı istehsalının səviyyəsini müəyyən etməyə imkan verir.

Bərdədən aşkar edilən V-Vll-əsrlərə aid şüşə ərintisinin və xammalının aşkar edilməsi, vaxtıilə məhz bu bölgədə şüşə əritmə kürələrinin olması yerli istehsalın kütləvi xarakter daşımasından xəbər verir.

Bərdədə müxtəlif qazıntı təbəqələrindən əldə edilmiş şüşə nümunələrinin elmi təhlili şüşə sənətkarlığının təkamül prosesini izləməyə imkan verir. Həmin şüşə məmulatının tədqiqi göstərir ki, şüşə bəzək əşyalarının istehsalına antik dövrdə, şüşə qab-qacaq, həmçinin loboratoriya və ətriyyat qabları istehsalına isə ilk orta əsrlərdə başlanmışdır.

III fəslin "**Bərdə şüşə qablarının texniki xüsusiyyətləri və istehsal dövrünün xronoloji ardıcıllığı**" adlı üçüncü yarımfəslinin birinci bəndində müasir tədqiqat üsullarına və yeni tədqiqat əsərlərinə istinad olunaraq Bərdə şüşə qablarının texniki xüsusiyyətlərinin xronoloji ardıcıllığı şərh edilir. Aşkar edilmiş nümunələrin tapıldığı şəraitə və onların aşkar edildiyi təbəqələrin tarixlərinin əsaslandırılmasına xüsusi diqqət yetirilir. Bu zaman Bərdə şüşə məmulatının bir qismini tədqiqata cəlb etməklə, onların istehsal texnikasının inkişaf istiqaməti müəyyənləşdirilir. Tədqiqat mövzusu işlənərkən öyrənilən şüşə məmulatını antik dövr, ilk orta əsr və inkişaf etmiş orta əsrlər dövründə izləyirik. Bərdə şüşə məmulatının çox hissəsi isə Vlll-lX-əsrlər təbələrindən aşkar edilmişdir. Şüşə istehsalının inkişafını da bu dövrdə izləyirik.

Bərdənin şüşə qablarının parçaları çox hallarda bütöv nüsxələr əsasında bərpa edilmiş, istehsal texnikasına dair xüsusiyyətləridə müəyyənləşdirilmişdir.

III fəslin " **Şüşə ilə bağlı folklor nümunələri və Azərbaycan klassiklərinin əsərlərində şüşəyə xitab** " adlı üçüncü yarımfəslində

şüşənin məişət əşyaları içərisində geniş yayılması, yüzilliklər boyu əhalinin həyatında mühüm yer tutması şərh edilir. Bərdə ərazisində şüşə ilə bağlı folklor-etnoqrafik müşahidələr - şüşə ilə bağlı folklor nümunələri, Azərbaycan klassiklərinin əsərlərində şüşəyə xitab, şüşəyə dair etnoqrafik məlumatlar şüşənin bərdəlilərin mənəvi həyatında yeri və rolunu müəyyənləşdirməyə imkan verir.

Şüşə məişət əşyaları yüzilliklər boyu əhalinin həyatında mühüm yer tutmuş, orta əsrlərdə xüsusi əhəmiyyət kəsb etmişdir. Bərdə əhalisi arasında şüşə əşyaları ilə bağlı çoxlu miqdarda atalar sözləri, folklor nümunələrinin mövcud olmasını şərtləndirmiş, Azərbaycan folkloru antologiyasında şüşənin gözəlliyini tərənnüm edən çoxlu sayda şeirlər, folklor-etnoqrafiq məlumatlar toplanmışdır. Azərbaycan folkloru antologiyasında şüşənin gözəlliyini tərənnüm edən çoxlu bayatılar[18] toplanmışdır.

Bir bayatıda insanın fiziki gözəlliyi şüşənin şəffaflığı və kövrəkliyi ilə müqayisə edilmiş, Azərbaycanda hələ qədim dövrdən şüşənin incəlik, kövrəklik simvolu kimi qiymətləndirildiyi vurğulanmışdır. Burada da şüşənin fiziki mahiyyətindən istifadə edərək mənəvi bir anlayış diqqətə çatdırılmışdır. Azərbaycan klassiklərindən Nizami Gəncəvnin[19], Məhəmməd Füzulinin[20] , Xəqani Şirvaninin[21] əsərlərində şüşəyə dair maraqlı məlumatlar verilmişdir. Bu əsərlərdə insanın ürəyini yaşadan ilahi qüvvə şüşə kimi təqdim edilmiş, insan ürəyinin şüşə kimi kövrək olmasından bəhs olunmuşdur. Ənənəyə görə şüşə qəlbi rahatlayan varlıq hesab edilir.

Dissertasiya işinin III fəslinin üçüncü yarımfəslinin **“Şüşəyə dair etnoqrafik məlumatlar”** adlı birinci bəndində şüşə ilə bağlı maraqlı məsələlərdən biri də etnoqrafik baxımdan uzun müddət şüşənin təmizlik simvolu sayılmasıdır.  Xalq arasında geniş yayılmış “tər-təmiz, şüşə kimi”, “şüşə kimi təmiz, şəffaf”, “büllur kimi”, “suyu

---

[18] Bayatılar.  Tərtib edən və ön söz müəllifi -V.Vəliyev, red. -A.Vəfalı // -Bakı: Yazıçı, -1985, -199 s.
[19] Nizami Gəncəvi. Poemaları./redaktor R.M.Əliyev. -Bakı: Maarif, -1985, -550 s.
[20] Məhəmməd Füzuli. Leyli Məcnun/ redaktor –H.Araslı.//- Bakı: Yazıçı, -1984, -182 s.
[21] Şirvani Xaqani. Seçilmiş əsərləri. /Tərtib ed. Məmmədağa Sultanov.- Bakı: Lider, -2004, -672 s.

büllur kimi şəffaf" və s. Kimi fikirlər saflıq, təmizlik, aydınlıq mənalarında indiyədək el dilində işlənməkdədir.

Qədim dövrlərdən ənənəvi olaraq, belə bir inam saxlanmışdır ki, hər hansı bir mərasim ərəfəsində evdə şüşə sınardısa, planlaşdırılmış hər hansı bir işin uğurlu olacağı kimi düşünülürdü. Xalq arasında hətta belə bir inam mövcuddur ki, əgər bir şüşə qab sınırsa, onun sayı üçə çatdırılmalıdır[22].

Azərbaycan əhalisi içərisində şüşə ilə bağlı etnoqrafik xarakterli ənənələrdən biri də muncuqlarla, xüsusilə, "gözmuncuğu" ilə bağlıdır. Şəffaf şüşədən yumru formada  şüşə damcıları ilə üzərində gözcüklər açılan gözmuncuğunu insanlar bəd qüvvələrdən hifs olunmaq, gözdəymədən, nəzərdən qorunmaq üçün üzərlərində gəzdirirlər. Gözmuncuğundan həmçinin heyvanı, evi, qiymətli əşyaları – ümumiyyətlə, mülkiyyəti və s. qorumaq məqsədi ilə istifadə edirlər.

Bərdə şəhərinin arxeoloji abidələrindən aşkar edilən gözmuncuqları və digər muncuq asmalar üzərindəki döymə naxışlar fərqli mənalar, eyni zamanda sonsuzluq mənası bildirir. Qəbirlərdən aşkar edilən kiçik həcmli şüşə ətir qabları isə ölünün yanına qəbir hədiyyəsi kimi qoyulurdu. Bu əşyalarla dəfn etmə adəti həmin insanın sonsuz yaşayacağı ilə dəyərləndirilirdi. Bütün bu əşyalar yalnız özlərinin istehsal tarixi haqqında məlumat vermir, həmçinin də həmin dövrdə yaşayan insanların dini təsəvvürləri, adət-ənənələri haqqında məlumat verir.

Ümumiyyətlə, tədqiqat mövzusunda xalqın yaddaşında şüşə ilə bağlı olan etnoqrafik məlumatlar da araşdırılır və aid olan arxeoloji şüşələrlə izah edilir.

Beləliklə, şüşə məmulatı əhalinin məişətinə daxil olduğu kimi onun mənəvi dünyasının formalaşmasına da müsbət təsir etmişdir. Bərdənin şüşə məmulatı ilə bağlı folklor-etnoqrafik məlumatlar sübut edir ki, qədim və orta əsrlər dövründə Bərdə şəhərinin şüşə məmulatı maddi baxımdan olduğu kimi mənəvi baxımdan da qiymətli olmuşdur.

**Tədqiqat işi aşağıdakı nəticələrlə yekunlaşır:**

Bərdə şəhəri orta əsrlərdə Azərbaycanın nəhəng iqtisadi-ticarət

---

[22] Abdullayev, B.A. Güzgü xalq yaradıcılığıdır. //- Bakı:Azərbaycan jurnalı, -1980, № 1,-s.169-174

mərkəzlərindən biri olmuş və magistral karvan yollarının üstündə əlaqə mərkəzi olmuşdur.

Bərdədən aşkar edilmiş şüşə məmulatının istehsal dövrünü xronoloji cəhətdən antik dövr, ilk orta əsrlər, inkişaf etmiş orta əsrlər dövrünə bölmək olar. Bərdə şüşə məmulatının çiçəklənmə dövrü VIII-IX əsrlərə düşür.

Bərdədə şüşə istehsalının güclü inkişafını göstərən əsas şərtlərdən biri ərazinin şüşə istehsalı üçün xammal materialları ilə - qum, ağac külü, əhəngdaşı və s. ilə zənginliyidir.

Bərdədə şüşə işləmə əvvəlcə natural xarakter daşımış, sonralar şüşə sənətkarlarının əsas məhsulları bazar üçün nəzərdə tutulmuşdur.

Bərdədə müxtəlif təyinatlı süfrə qabları, laboratoriya və ətriyyat qabları, eləcə də bəzək əşyaları, xüsusilə qolbaqlar, muncuqlar və üzüklər geniş şəkildə istehsal edilmişdlr.

Süfrə qabları içərisində, əksəriyyəti, müxtəlif ölçülü stəkanlar, piyalələr və kuzələr təşkil edir.

Ətriyyat qabları içərisində ən geniş yayılanı flakonlardır.

lX əsrdən başlayaraq Şərqin müsəlman dünyasının kimyəvi qabı kimi xarakterik olan alembiklərdən Bərdədən aşkar edilməsi digər ölkələrlə əlaqələri də təsdiq edir.

Bərdədən aşkar edilmiş orta əsrlər şüşə əşyalarının sadə formada olması, xeyli sayda rast gəlinməsi və digər bir sıra xüsusiyyət, əlamətlər bu məmulatın əsasən yerli istehsal məhsulu olduğunu təsdiq etmişdir.

Bərdədən Orta Şərq ölkələrində istehsal olunmuş şüşə məmulatı da aşkar edilmişdir. Gətirilmə şüşələr Bərdədə istehsal edilən şüşə məmulatından formasına, naxışlarına və kimyəvi tərkibinə görə kəskin şəkildə fərqlənir.

Tədqiq edilən Bərdə şüşəsi müxtəlif biokimyəvi tərkibdən ibarətdir. Bərdə ustaları şüşə istehsalı üçün dövrün bütün mövcud üsullarından və müxtəlif qaydalarından, o cümlədən qəlibdə tökmə, qəlibdə üfürmə və sərbəst üfürmə üsulundan istifadə etmişlər.

Xalqın ideologiyasında şüşə və şüşə məmulatı, onun istehsalı ilə bağlı müəyyən ənənənin əsası qoyulmuş, o, ümumiyyətlə, təmizlik və xoşbəxtlik simvolu olmuşdur. Buna görə də, xalq arasında şüşə ilə bağlı çoxlu mərasim, adət və inanc formalaşmışdır. Həmçinin, şüşə ilə

bağlı maraqlı fikirlər xalq adətlərində də yer tutmuş, folklorda, xalq yaradıcılığında və şairlərin şeirlərində öz əksini tapmışdır.

Arxeoloji qazıntılar zamanı Bərdədən aşkar edilmiş şüşə məmulatının tədqiqi ilə Azərbaycanın qədim şəhərlərindən birinin sənətkarlıq tarixində xüsusi yer tutan şüşə məmulatının antik dövr və orta əsrlərdə meydana çıxma və inkişafı tarixini öyrənməyə və bununla da tariximizin aktual bir probleminin həll edilməsinə nail olduğumu zənn edirəm.

Bərdədən aşkar edilmiş şüşə məmulatı istehsal texnikasına görə eyni qrupa aiddir və Mərkəzi Asiya və Yaxın Şərq ölkələrinin istehsal texnikası ilə oxşarlıqlara malikdir. Bərdəli ustalar müxtəlif rəngli və çeşidli şüşə məmulatı istehsal etmişlər. Təcrübələr əsasında şüşə ustalarının şüşənin tərkibini təşkil edən xammalın seçilməsi, əridilməsi və müxtəlif rənglərin alınması texnologiyasına yiyələnmişlər.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İlk orta əsrlərdə Bərdə şəhərinin ticarət tarixindən // -Sumqayıt: Sumqayıt Dövlət Universiteti. Elmi xəbərlər, Sosial və humanitar elmlər bölməsi, -2015. cild 11, № 2,- s.44-49
2. Azərbaycanda şüşə istehsalının inkişaf tarixi (İlk orta əsrlər)// -Bakı: Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal,-2016. №1,- s.287-291
3. İlk orta əsrlərdə Bərdədə şüşə istehsalı// -Sumqayıt: SDU "Elmi xəbərlər" jurnalı. Sosial və humanitar elmlər bölməsi,-2017. cild 13, № 4,- s.58-60
4. Azərbaycanın ilk orta əsr şəhərlərində şüşə sənətkarlığı. Baku Engineering University "Dedicatedtothe 94 $^{th}$anniversary of the nationalleader of Azerbaijan, Heydar Aliyev I international scientific conference of young researchers", -Baku: -05-06 May 2017, Azerbaijan, -p.1048-1050
5. Erkən orta əsrlərdə Bərdə şəhərində şüşə istehsalı//- Bakı: Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal, -2017, -s. 315-319
6. Bərdə şəhərindən aşkar edilmiş şüşə-parfumeriya qabları. Baku Engineering University "Dedicatedtothe 95$^{th}$ anniversary of the national leader of Azerbaijan, Heydar Aliyev II international scientific conference of young researchers", -Baku: -27-28 April 2018, Azerbaijan, -p. 1722-1724
7. Glass decorative items found in Barda//- –Киев: Национальной педагогичной университет имени М.П.Драгоманова. ВГО Украинская академия наук. Видавництво «Гилея». Науковий висник збирник наук о вихпрацъ-2018. Випуск 131 (№4), -с.128-129
8. Из истории производства стеклоизделий на Кавказе // Пятые Всероссийские (с международным участием) историко-этнографические чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича. Сборник статей. Махачкала: Издательство ДГУ,- 2018,- с. 118-125

9. Qafqazda qarşılıqlı ticarət əlaqələrinin inkişaf tarixindən (şüşə məmulatı əsasında)// Mingəçevir Dövlət Universiteti, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş "Qlobal tendensiyalar və müasir Azərbaycan" mövzusunda Respublika Elmi Konfransının materialları,-Mingəçevir: -07-08 may,- 2018,- s. 495-497

10.Qədim Bərdə şəhərinin sənətkarlıq növlərinin tarixi-arxeoloji izləri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, -2018. № 1, -s.151-156

11.Bərdə şəhərindən aşkar edilmiş şüşə süfrə qabları. Baku Engineering University "Dedicatedtothe 96th anniversary of the national leader of Azerbaijan, Heydar Aliyev III international scientific conference of young researchers", -Baku: -29-30 April, -2019, Azerbaijan, -p.904-908

12.Azərbaycanın Bərdə coğrafi arealında arxeoloji tədqiqatlar. Sumqayıt Dövlət Universiteti, Coğrafiyanın müasir problemləri Respublika Elmi Konfransının materialları, -Sumqayıt: -24-25 oktyabr, -2019, -s.190-192

13. Bərdə şəhərindən aşkar edilmiş şüşə qolbaqların istehsal tarixindən//-Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər,- 2019. №79, -s.135-143

14. Bərdə şəhərinin arxeoloji tədqiqat tarixindən Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər siyahısı, -2019. № 1, -s.170-177

15.Об истории изготовления бусин, найденных при археологических раскопках в городе Барда//-Sumqayıt SDU "Elmi xəbərlər" jurnalı. Sosial və humanitar elmlər bölməsi, -2020. cild 16, № 3, -s.47-53

16.Azərbaycan ərazisindən tapılmış antik və orta əsrlərə aid şüşə qablar İnternational AEGEAN Symposıum. On Social Sciences& Humanities –III. , - İzmir: -March 12-13, -2021.- s.274-286

17.Foreign trade relations of Barda in ancient and medieval periods (based on archeological glassware). Elmi iş Beynəlxalq elmi jurnal, 1.518 Yüksək İmpakt Faktorlu Elmi Araşdırmalar və yeniliklər tezislər toplusu, cild:1, Sayı: 3, -p.17-22. DOİ: https://www.doi.org/10.36719//2021/01/03

18.Glassware production in Barda. Vakanüvis Uluslararası Tarih Araştırmaları Dergisi, yıl 6, sayı 2 (Güz 2021), Sakarya, Eylül/September, -2021, -p. 498-511. İSSN: 2149-9535

19.Barda, the ancient city of Azerbaijan. VII Internatıonal "Başkent" congress on physıcal, socıal and health scıences proceedıngs book, Ankara, Türkiye, - October 29-31, -2022,- p. 746-748

20.Folklore and ethnographic information about glass in Azerbaijan//- Київ: Вчені записки Таврійського національного університету імені В.І. Вернадського Серія: Історичні науки, -2023. Том 34 (73), №1,- p.238-244

21.Foreign trade relations of caucasian Albanian cities (based on archaeological glassware), 2 nd International Izmir congress on humanities and social sciences proceedings book, Izmir, Turkiye, -October 14-16, -2023, p.214-216

22.Glassware production technique in Barda during the early middle ages. VII International New York academic research congress on humanities and social sciences proceedings book, Turkey, USA, -February 18-20, -2023, p.449-450

Dissertasiyanın müdafiəsi 16 may 2024-cü il tarixində saat 10:00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: _______2024

Kağızın formatı: A5

Həcm: 38776

Tiraj: 100